***Atif İSLAMZADƏ***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutunun dissertantı***
***e-mail: atif.islamzade@mail.ru***

# MİFOLOJİ TƏSƏVVÜRLƏR VAHİD İNANC SİSTEMİNİN TƏZAHÜRÜ KİMİ

**Xülasə**

Bu məqalədə mifoloji təsəvvürlərin necə yarandığı, mətnlərdə hansı şəkildə iştirak etməsi, yanlış təsəvvürlərin mifologiya sahəsində geniş yer aldığı tədqiq olunmuşdur. Eyni zamanda elmi ictimaiyyətə indiyə kimi qəbul olunan mifoloji və tarixi şüur əvəzinə tarixi mif və epik mif terminləri təklif olunmuşdur.

Mifoloji təsəvvürlərin struktur və poetikası əsasında izah olunmuşdur ki, miflər Vahid İnanc sistemindən qaynaqlanır, Yaradandan, yaradılışdan, Adəmdən-Xatəmə kimi gələn Vahid missiyadan bəhs edir. Ancaq söyləyicilər tərəfindən mifin əsasları qismən təhrif olunduğu üçün yanlış qənaətlər də meydana çıxmışdır.

Bu araşdırma elm sahəsində tamamilə yenidir və gələcək tədqiqatlar üçün istifadə mənbəyinə çevrilə bilər.

***Açar sözlər:*** *mifologiya, vahid inanc sistemi, mifoloji şüur, tarixi şüur, epik mif, tarixi mif*

***Atif ISLAMZADE***

## MYTHOLOGICAL IMAGINATIONS AS A MANIFESTATION OF A SINGLE BELIEF SYSTEM

**Summary**

In the article the formation of the mythological concepts, their presence in the texts, the wide place of the misconceptions in the field of mythology are investigated. At the same time instead of accepted mythological and historical consciousness the historical myth and epic myth terms are proposed to the scientific community.

On the basis of structure and poetics of mythological imaginations it was explained that myths originate from a Single Belief system, they speak about the Creator, creation, the Single mission that comes from the beginning to the end. However, as the basis of the myth was partially distorted by the narrators, false conclusions also appeared. This study is completely new in science and can become a source of use for further research.

***Keywords:*** *mythology, Single Belief system, mythological consciousness, historical consciousness, epic myths, historical myths*

***Атиф ИСЛАМЗАДЕ***

**МИФОЛОГИЧЕСКИЕ ПРЕДСТАВЛЕНИЯ КАК ПРОЯВЛЕНИЕ ЕДИНОЙ СИСТЕМЫ ВЕРЫ**

**Резюме**

В этой статье исследуется, как формируются мифологические идеи, как они участвуют в текстах и насколько широко распространены заблуждения в области мифологии. В то же время научной общественности были предложены термины исторический миф и эпический миф вместо общепринятых до сих пор мифологического и исторического сознания.

На основе структуры и поэтики мифологических представлений объясняется, что мифы происходят из единой системы верований и говорят о Создателе, творении и единой миссии от Адама до Хатамы. Однако дезинформация возникла также из-за того, что рассказчики частично исказили основы мифа.

Это исследование является совершенно новым в области науки и может стать источником использования для будущих исследований.

***Ключевые слова:*** *мифология, единая система веры, мифологическое сознание, историческое сознание, эпический миф, исторический миф.*

Mifdən bəhs edərkən, xüsusilə də onu dünyagörüşü forması kimi əsaslandırarkən mifoloji mətnlərdə olan bilgilərin səmavi dinlərin daxilində mövcud olan müəyyən bilgilərlə uyğun gəlməsinin səbəblərinə də toxunmaq lazımdır. Çünki müxtəlif fikir çaşqınlığı yaradan məsələlərdən biri də mifik və dini mətnlərdəki uyğun ifadə, məna və anlamlardır. Qeyd edək ki, bu məna və funksiya yaxınlığı, hətta bir çox simvolik obraz xarakteristikası vahid ehkamın görüntülərindən ibarət olan invariant strukturdan qopan paradiqmalardır. Məhz bu dünyagörüşü forması kimi əvvəlki dinləri ifadə etməsini göstərməklə bərabər, bədi-epik mifin obrazlaşmış ifadə təzahürüdür. Eyni fövqəl qüvvənin mövcudluğundan xəbər verən teo-informasiya eyni Tövhid missiyanı daşıyan silsileyi-nübuvvənin gerçək mahiyyəti obrazlaşmış mətnlərdə də, açıq sözlük və fikir təzahürlərində də bir daha özünü təsdiqləyir. Kosmos-Xaos, Nizam-iğtişaş, Sakral-profan, demiurq-xtonik və s. bu kimi ali, maddi və mövhumi qüvvələri əhatə edən mif informasiyası, törəyiş dastanları, yaradılış əfsanələri kimi kosmoqonik baxışlar sistemi və esxatoloji mif anlayışı ilə qəbul edilən mifik məlumatların açıq və simvolik modelləri mifin dini xarakterə

mənsubluğunu açıq formada büruzə verir. Elə buna görə də mif mətnlərindəki məlumatlarla dini məlumatlar bir-birini inkar deyil, təsdiq edir. Dini məlumatların bazasının mifdən götürülən məlumat hesab etmək isə mifin dini xarakterinin yanlış araşdırılmasından irəli gəlir. Hər hansı dövrə düşür düşsün-bu nə fərqli mədəniyyət hadisəsi deyi, nə fərqli inanc sistemi, nə də fərqli həyat tərzi. Bu diaxron ardıcıllığıdır. Maddi xronotopdur. Adəmdən Xatəmə gələn ehkamdır. Ehkam dəyişməz olduğuna görə dövrlər, şəxsiyyətlər və yazılı-şifahi qanunlar dəyişsə də, bu məsələlər dəyişməzdir. Epik səviyyələrdə, obraz arealında dəyişilmiş görünsə belə mahiyyətdə sabit olaraq qalır. Mif zamanının xronotopunda ifadə olunan zaman da – Allah qatından yerə endirilmiş insanın Allah qatına doğru geri qayıtması fəlsəfəsi üzərində qurulmuşdur. Maddi aləmin içərisində mövcud olan bioloji-fiziki funksiyalar baxımından zaman qavrayışı saat əqrəbi istiqamətində irəliyə doğru getmədədir. Yəni doğumdan ölümə doğru irəliləməkdədir. Lakin mifoloji (dini) zaman anlayışına görə ölüm son deyil, bir haldan başqa hala, bir məkandan başqa məkana keçmədir. Yəni əvvələ qayıdışdır. Allah dərgahına dönüşdür. Demək bu dünyanın və mövcudiyyətin əbədi zamanı irəli yox, geriyə gedən zamandır. Bizim düşüncəmizə görə irəli getməkdə olan zaman əslində əvvələ getməkdə olan zamandır. Miladdan öncənin mifik düşüncəsində bu hesabla götürülən zaman fiziki prosesləri özünün əbədi gerçəkliyinə tabe edib faktoliji formada eraya qədər geriyə gələn zamandır. Ondan doqquza, doqquzdan səkkizə bu dinamika üzrə birinci ilə qədər gələn zaman eradan sonra zaman baxımından əvvəldən axıra getməkdə olan trayektoriya üstündədir. Zamanın milada qədər geriyə gəlməsi fəlsəfəsi ən qədim xalqlarda da, özünü bu fəlsəfəyə uyğunlaşdıran xalqlarda da özünü göstərir. M.Ö.də era ona görə geri gəlir ki, tarix (təqvim) ilk insanın dünyaya gəldiyi illə götürülür və təbiidir ki, illər geriyə doğru hesablanır. Çünki ilk insandan əvvələ doğru hesablana bilməz. Bu baxımdan çinlilər m.ö. 2397, yəhudilər m.ö. 3761, hindliər m.ö. 3113, rusiyalılar isə 5509-cu ildən era və təqvimlərini hesablamışlar” [1, s. 3, 15, 16, 21].

Zamanın bu fəlsəfi gedişatı məhz epik mətndə mətnüstü, mətniçi və mətnaltı informasiyalarda daşınmaqdadır. Elə bu fərqli düşüncə hadisəsi baxımından biz DQK-nin eradan öncəyə aid təfəkkür tərzindən gələn arxeepos olduğunu qətiyyətlə söyləyə bilərik. Çünki bu əsərdə zaman eyniçarxlı hərəkətlə geriyə doğru gedir ki, bu da struktur komponent olaraq bu zaman tərzini mətnaltında kod səviyyəsində, mətn üstündə mövzu əhatəsində proyeksiyalandırır. Misal üçün, II boyda Qazan xan tərəfindən öldürülən kafir Şöklü Məlik III boyda yenə həyatını yaşayır, III boyda yenə Qazan xan tərəfindən öldürülür, IV boyda yenə həyatda olduğu görünür. Həmin boyun sonunda təzədən Qazan xan tərəfindən öldürülür [2, s. 50, 66, 77]. Yəni geriyə gedən zaman Qazan xan tərəfindən öldürülmüş Şöklü Məliyin

yenidən dirilməsini, sonra yenə ölməsini, sonra yenə dirilməsini və yenə də ölməsini ifadələndirir.Yəni zaman geriyə getdiyinə görə Şöklü Məlik doğumuna qayıdır, təzədən ölməli olur və eyni şəkildə bu bərpa prosesi davam edir. Əlbəttə bu barədə digər qiymətli fikirlər də vardır ki, bu örnəklərdən əhəmiyyətli şəkildə diqqət çəkən birisi S.Rzasoyun tədqiqatlarında özünü göstərir. Tədqiqatçı alimə görə bu proses təkrardan irəli gəlir "Bir mətndəki hadisələr o biri mətndəki hadisələrin davamı, yaxud əvvəli yox, "təkrarıdır" [3, s. 34].

Əlbəttə biz də bu situativliyi inkar etmir, lakin bunun geriyə qayıdan zamandan irəli gələn dinamik proses və fəlsəfi düşüncə tərzi olmasına aydınlıq gətirməyə çalışırıq. Geriyə qayıdan zaman DQK-də Qazan-Uruz münasibətlərinin kompozisiyasında da eyni formada iştirak edir. II və IV boyda Qazan və onun oğlu Uruzun haqqında geniş bəhs açıldığı halda, XI boyda Qazan Uruzu, Uruz da Qazanı tanımır. Hətta Qazan övladının böyüyüb igid olmasına təəccüb edir [2, s. 120-121].

Çünki XI boydan geriyə gələn zaman mətnüstü süjetdə IV boya və II boya dönüş xəttini inikas etdirir. Beləliklə bizim maddi-fiziki qavrayışlarımıza görə davam edən zaman DQK də geriyə doğru hərəkət edir və bu sakral sferaya cazibəni epik mətndə kosmoloji funksiyada təsdiqləyir. Şaquli və üfiqi strukturdan şaxələnib düşüncədə obrazlaşan üçlük türk mifoloji modeli və ritual sferanı təşkil edən toy, soy, boy [4, s. 47].

Oğuz eli təşkilatı ilə bərabər Oğuz fütuhatını şərtləndirən sakral transmissiyada eyni səciyyəni inikas etdirir. Mif və din arasında uyğunluq və təkrarçılıq göründüyü kimi dinin mifdən nə isə götürməsi deyil, əksinə mifin özünün Vahid inancdan şəkillənməsi səbəbindən irəli gəlir. Bu təkrarçılıq heç də iddia olunduğu kimi qədim dövrlərdən iqtibas (kobud şəkildə oğurluq) və yaxud transfer hadisəsi yox, eyni bir ehkamın təhrif olunduqca, Allah-Təala tərəfindən yenidən təzələnməsi, vəhy yolu ilə peyğəmbərlik vəzifələrinin Xatəmül-Ənbiyaya qədər davam edən zəruri ardıcıllıqdır. Vəhy Allah (Celle Celaluh) tərəfindən müəyyən mübarək şəxsiyyətlərə bəxş edildiyi üçün burada heç bir trans olunma (bədii, epik, struktural) şəkillənməsi ciddi qəbul edilə bilməz. Bəzən eyniyyət yaxınlığı görünən inanc və əxlaq qaydalarına da bu cür səthi yanaşsaq, hətta mükəmməl sistemlərin guya ibtidai davranış normalarından çırpışdırılması qənaətinə gəlinir ki, bu da qeyd etdiyimiz İlahi ehkamın vəzifələndirilməsi gerçəkliyinə diqqətsiz yanaşmadan irəli gəlir.

Mifik mətnlərdə mövcud olan mövhumi obrazlar sistemi də gerçək mifdən ayrılan epik layların mükəmməl dini sistemdən qopduğunu göstərir. Əgər epik mətn əsasında uydurma və gerçəklik bir-birinə çulğalaşmış şəkildə özünü göstərirsə, obrazların kökündə mövcud olan gerçəkliyi və uydurmanı bir-birindən fərqləndirən spesifiklik də diqqətdən kənarda qala bilməz. Demonoloji obrazların mey-

dana gəlib, epik mətn hadisəsinə çevrilməsi onların mövcud olmaması anlamını vermir. El ağzında bu gün belə işlək olan cin və ruh haqqındakı hekayətlər bir tərəfdən şüuri-psixi yaşantıdan irəli gələn qarabasmalardan (hallüsinasiyalardan) törəyirsə, başqa bir tərəfdən gerçək görüntülərdən də qaynaqlanır. Ruhların və cinlərin, ümumiyyətlə mövhumi varlıqların mövcudluğu bütün dinlərdə ehkam səviyyəsində qəbul olunur [5, s. 80].

Beləliklə, demonoloji varlıqlara aid olan mifik obrazlar ( yazılı ədəbiyyatda da demonik obrazlar böyük ədəbi əsərlərin mövzusunun hərəkətverici obrazı olmuşdur [6, s. 1-474; 7, s. 153-180; 8, s. 253-342].

Bundan əlavə okkultik və spiritist sahələrə (ruhlarla praktiki ünsiyyətə çalışan gizli sahələr) və magiya ilə bağlı ayin və mərasimlərə aid olan mif bilgiləri, eyni zamanda batini sahələrə aidliyi ilə seçilən mistiki sahələr (şamanizmdə olan müəyyən ayin və rituallar) mifin dünyagörüşü forması kimi din anlayışı dasıması, epik mətn tipi kimi bu sistemdən qopan ifadə təzahürü olması bir daha təsdiqlənir. Sadəcə olaraq epik mətnə düşən bu məlumat mənbəyinin mövcudluğunun inkar olunması fetiş, totem (kult), büt və s. bu kimi bütpərəst dünyagörüşünün mətnə tətbiq olunmasının müddəa olaraq alternativsiz qədim mədəniyyət tipi kimi göstərilməsini əsaslandırmışdır. Bundan əlavə qadağan olunmuş sahələrin kütləvi şəkildə aşkara çıxarılması eyni zamanda mətndə mövcud olan anaxronizm ( bilərəkdən pozulan xronoliji ardıcıllıq), sofizm (bilərəkdən yalanın doğru kimi əsaslandırılması) və paralogizm (bilməyərəkdən yalanın doğru kimi əsaslandırılması ) [9, s. 235; 10, s. 385] kimi spesifik funksiyaların bir-birinə qarışması, göründüyü kimi nəticə etibarilə də mətndə olan gerçək və uydurmanın aydınlaşdırılmaması və mətnə ifrat yanaşma tərzi bir çox məsələlərin dolaşıq düyünlərə düşməsinə səbəb olmuşdur.

Hətta mifoloji ədəbiyyatda xronik qüvvələr və marginal obrazlar kimi adlandırılan təkgöz, təkbuynuz, təkqol və s. surətlərin də yalnız təxəyyüldən doğan motivlər deyil, real zəmindən (prototipik) meydana gələn gerçək məxluqlar olduğu, lakin epik tələbata uyğun şəkillənməsi də (alleqoriya və s.) ehtimal olunur. Belə ki, tarixin atası adlandırılan Heredot "Tarix" kitabında issedon xalqının yaşadığı ərazidən yuxarı tərəfdə taygözlərin yaşaması haqqında məlumat verir "İssedonların özlərinin söyləiklərinə görə onlardan yuxarılarda taygöz adamlar və qızıl güdən qriflər yaşayırlar" [11, s. 224].

Maraqlıdır ki, Heredot eyni mənbədə İskitlərə yaxın ərazidə anadangəlmə dazbaşların da haqqında məlumat verir "Deyilənə görə kişili və qadınlı onların hamısı anadangəlmə dazbaş, yastıburun və buxaqlıdırlar" [11, s. 224].

Təbiidir ki, bu da keçəl arxetipi və prototipi kimi dəyərləndirilə bilər (Ən az halda Yunan və türk mifoligiyası üçün bu keçərlidir. Çünki iskitlər türk mənşəli

xalqdır. İssedonların skiflər olması və türk mənşəli olması haqqında da bilgi vardır [12, s.137].

Elə Heredot "təpəgöz" anlamını verən arimasp sözünün də iskit dilində olduğunu qeyd edir "Onları (taygözləri) iskitcə arimasp adlandırırıq: iskitlərdə arima-tək, spu-göz mənasında işlənir" [11, s. 224].

Bundan əlavə genetiklərin genotip adlandırdıqları orqanizmin irsi əlamətlərinin ressesiv formada (gizli gen) daşınmasının müxtəlif təzahürlərlə aşkarlanması (genetikada fonotip) genetika elmində – anomaliya xüsusiyyətlərinin təbii şəkildə orqanizmdə özünü göstərməsi, cıtrdanboy adamların, albinosların (ağappaq, qıpqırmızı gözlü, piqmentlərdən məhrum olan, nağıl sifətlərinə bənzər əcaib adamlar) qar ayaq adamların, dovşan dodaqlıların, eləcə də digər atavizmlərin (ulu əcdada məxsus əlamətlərin orqanizmdə özünü biruzə verməsi) bioloji formada bu günün özündə belə mövcudluğu (rekopitulyasiya) və bu kimi digər fakt və hadisələr də mif mətnlərinin yalnız uydurma olmadığını müxtəlif cizgilərin real əsas törəməsini, epik düşüncədə isə epik tələbata uyğun dəyişikliyə uğramasını göstərə bilər [13, s.18, 19, 27, 28, 54, 118].

Mif simvollarından tutmuş təxəyyüldən doğan və qeyd etdiyimiz kimi təxəyyülə bənzəyib təsəvvürdən meydana gələn süjet, motiv və mövzular – mifoloji sistemin vahid bir sistem olduğu, Yaradandan və onun yatardığı mövcudatdan bəhs edən dünyagörüşü forması və epik ifadə tərzi kimi ortaya çıxdığı qənaətini doğurur. Lakin bu da inkar olunmazdır ki, epik tələbat hadisələrin çılpaq təzahürünün qarşısını alır. Epik mətni formalaşdıran subyekt (informator) nəql etdiyi hadisəyə bəzək vurur, onu dəyişdirir, bəzən uydurmanı gerçək, bəzən gerçəyi uydurma kimi təqdim edir, bir sözlə, necə olanı necə olan kimi deyil, necə görmək istədiyi kimi təsvir edir. Məhz epik mətnlərin bu xarakteristikası dünyagörüşü və simvolikanın da bir-birinə qarışmasına səbəb olur. Tədqiqatçı epik səviyyələri tarixi-real faktorlardan ayırıb bu mətn strukturunu analiz və sintez edərkən aydındır ki, bu mürəkkəb prosesi təsnif etməyə çalışmazsa, bu mətn üzərində ideoloji repressiyalara gətirib çıxara bilər. Bu baxımdan mif haqqındakı bu mövzu əhatəsində irəli sürdüyümüz fikirlərimizi ümumiləşdirərək aşağıdakı təsnifatı kütləvi auditoriyaya təqdim edirik:

1) Mif Vahid İnanc sistemidir, tövhidi və peyğəmbərlər silsiləsini inikas etdirən qədim dinlərdən törəmişdir və yaxud bu anlamı ifadə edən sözlüyü müəyyən mərhələdə əvəzləyir. Dünyagörüşü formasıdır. Tarixi mifdir.

2) Mif epik mətndir – ilkin olaraq dünyagörüşü formasının zahirə çıxan ifadə təzahürüdür. Sakral informasiyanı ifadədən başlayıb maddi aləmi təcəssüm etdirən təhkiyə üsuludur. Fikri ifadə formasıdır. Epik mifdir.

3) Mifin dünyagörüşü forması kimi vahid səmavi dinləri deyil, bütpərəst inancları özündə inikas etdirməsi iki şəkildə meydana gəlmişdir:

a) Vahid missiyanın (səmavi kitabların) mahiyyəti təhrif olunmuş bütpərəst inanclar meydana gəlmiş və epik mətnlərə düşmüşdür.

b) Məqsədyönlü və yaxud yanlış ideolji münasibətlərdən epik mətndə bütpərəst inanclarına uyğun ifadələr axtarmış, yanlış müddəalar irəl sürülmüş, eyni zamanda mif simvolikası gerçək anlayış və dünyagörüşü kimi (bütpərəstlik mövqeyindən) qəbul olunmuşdur.

4) Mifoloji və tarixi şüur anlayışları, mifin guya tarixi şüurdan əvvəlki mərhələni təşkil etməsi, dinlərin isə tarixi şüur çağında meydana çıxması kimi müddəalar yanlışdır. Materialist baxışın qənaətidir.

Nəticə olaraq onu da qeyd edək ki, mif anlayışı tarixdən əvvəl və sonra deyil, tarixi və epik mif kimi təsnif olunarsa, bu daha da məqsədəuyğun ola bilər.

## QAYNAQLAR

1. Əsgər R. İqlimdən-iqlimə, təqvimdən-təqvimə. – Bakı: İşıq, 1987. – 103 s.

2. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. – Bakı: Yazıçı, 1988. – 265 s.

3. Rzasoy S. Oğuz mifinin paradiqmaları. – Bakı: Səda, 2004. – 200 s.

4. Xəlil A. Dədə Qorqud kitabında arxaik ritualla bağlı motivlər / Dədə Qorqud jurnalı. Elmi-ədəbi toplu. III (12) – Bakı: 2004. – 170 s.

5. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. VII cild. – Bakı: 1983. –624 s.

6. Gete V.Y. Faust. – Bakı: Azərnəşr, 1970. – 501 s.

7. Lermontov M.Y. Şeirlər, poemalar, mənzum dram, romanlar. – Bakı: Yazıçı, 1989. – 525 s.

8. Cavid H. Əsərləri. IV cilddə, II cild. – Bakı: Yazıçı, 1982. – 393 s.

9. Rusca-Azərbaycanca lüğət. III cild, təkrar nəşr. Redaktə edən Ə.Ə.Orucov. – Bakı: Gənclik, 1983. – 555 s.

10. Rusca-Azərbaycanca lüğət. II cild, təkrar nəşr. Redaktə edən Ə.Ə.Orucov. – Bakı: Azərnəşr, 1983. – 712 s.

11. Heredot. Tarix. 9 kitab. I hissə. Tərcüməçi Xəlilov P. – Bakı: Azərnəşr, 1998. – 329 s.

12. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı: Azərnəşr, 1994. – 248 s.

13. Axundov M. İnsan genetikasına səyahət. – Bakı: Azərnəşr,1975. – 128 s.

*Daxilolma tarixi: İlkin variant 27.01.2021*
*Son variant 22.02.2021*